**Rauf İlyasoğlu**

# *Cinaslı Rübailər*

**BAKI- 2013**

*Kitab Məhsəti Gəncəvinin*
*900 illik yubileyinə ithaf olunur*

*AJB-nin üzvü, "Respublika" qəzetinin xüsusi müxbiri Rauf İlyasoğlunun "Cinaslı rübailər" kitabı müəllifin beşinci kitabıdır. Onun istər satirik, dini, məhəbbət, vətənpərvərlik ruhlu şeirləri və bayatıları, istərsə də təcnisləri və cinaslı rübailəri bir çox qəzetlərdə dərc olunmuş, müəllifə geniş oxucu rəğbəti qazındırmışdır.*

*Kitabda R.İlyasoğlunun 180-ə yaxın cinaslı rübailəri və satirik şeirlərindən bir neçəsi toplanmışdır.*

*Cinaslı rübailərin insanların zehni və məntiqi fikirlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edəcəyinə inanırıq.*

İ $\frac{M\text{-}0049175}{700122}$ -12-2012

© *"Təhsil" EİM NPM, 2013*

*"Cinaslı rübailər"*
*Bakı-2013, səh.*

# Cinasda məharət

Cinas qafiyələr şeirimizin ən mürəkkəb və çətin növüdür. Burada mənaca müxtəlif, şəkilcə eyni sözlər qafiyələnir, həm də cinaslarda məzmun yerində olmalıdır. Məzmunsuz təcnis mənasız söz oyunudur. Təcnis klassik yazı şeirimizdə az-az işlənib. Aşıq şeirində Qurbanı və Abbas Tufarqanlıdan üzü bə-

ri nadir nümunələri yaranıb. Ələsgərdə yeni-yeni çalarlar qazanıb. Bayatılarımızda daha çox istifadə olunub. Pünhana çəkilən Kərəm Əsli köçünün keçdiyini eşidib əlinə bel alıb yer şumlamaq bəhanəsiylə deyir:

***..., belə bax,***
***Kəmər düşdü, belə bax.***
***Qocaldım, günüm keçdi.***
***Pünhan oldum, belə bax.***

Göründüyü kimi üç dəfə müxtəlif mənalarda işlənən eyni şəkilli "belə bax" sözü ilə el aşı-

ğı çox məzmunlu bayatı yaratmışdır. Burada həm də Kərəmin illərlə Əslinin arxasınca düşüb nəhayət qocalıb pünhan olmasına aydın bir işarə də vardır. Belə bayatılarımız çoxdur.

Rauf İlyasoğlunun "Yollarda yazılan təcnislər" kitabcasında xeyli təcnis dördlükləri toplanmışdır. Öncədən qeyd edim ki, Rauf dilimizin zənginliklərinə yaxşı beləddir. Belə olmasaydı o, müasir ruhlu, müasir nəfəsli cinasları qafiyələrə düzüb məz-

munlu mündərcəli təcnislər qoşmazdı. Aydın hiss olunur ki, Rauf cinaslı sözləri yollarda öz aləminə çəkilib dodaqaltı zümzümələr oxuya-oxuya söyləyib. Belə olmasaydı onları otaqda oturub lüğətləri varaqlamaqla cinas qafiyələr düzüb təcnis yaratmaq olmazdı.

Cinaslarda dilin zənginliyi vacib olduğu kimi axı el obanının zəngin deyimlərini, ifadə tərzini, xalq məişətinin sədəf ki-

mi sapa düzülən mirvarilərini mükəmməl bilmədən qəlbə yatımlı cinaslar yaratmaq olmazdı. Bu zənginlik Raufun ruhuna hopmuş, oradan da daxilən cinaslar düzülüb dadlı-duzlu təcnisə çevrilmişdir. O da diqqəti çəkir ki, cinaslar analardan başlayır:

***Qərib oldum öz elimdə anasız,***
***Bu həyatın nə dəyəri anasız?***
***İstəmərəm olsun kimsə anasız,***
***Anaları sağlığında anasız.***

***Laylay deyən ana dilim şirindi,***
***Fərhad deyil dağı şapan şirindi.***
***Anam süzən çayım mən şirindir.***
***Ana görsə muma dönər şir indi.***

Hər iki təcnisdə cinaslar da məzmun da yerli yataqlıdır, hətta ikinci təcnisin son misrası daha mənalı və düşündürücüdür, axı şirin də anası var, bütün canlıların anası var, bütün balalar anaları sevir və ona səcdə edir. "Fərhad deyil, dağı çapan, Şirindi" misrası da çox tutarlı bədii ifadədir. Çün-

ki Fərhad gücü Şirindən alır. Kitabdakı rubai təcnislər diqqəti çəkir. Hər bəndin ayrıca bir cinas rübai kimi səslənməsi mükəmməl şeir nümunəsidir.

***Söz desəm də ya nadana, ya daşa,***
***Əhsən olsun səndəki o yaddaşa,***
***Haram yolla qazanılan kimsənin***
***Tamah salma bişirilən yad aşa.***

Gözəl deyilmiş, cinasdır, yerindədir, məzmun və ideya da yaddaşa həkk olandır.

Təəssüf ki, bəzən yerində işlənməyən, məntiqə uyuşmayan

rübai cinaslar var ki, onlarda fikir də yerində deyil, cinas ifadələr də. Deyim ki, ciblərdə gəzdirməyə layiq olan bu təcnis kitabçada gərək xırda qüsurlar olmasın.

Rauf İlyasoğlunu alqışlayır və ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



***QARA NAMAZOV***
***Filologiya elmləri doktoru, professor***

# Dördlüklər
# Cinaslı
# Rübailər

### 1

*Kəhrabalar düzülübdü rəngi sarı,*
*O salxımlar əl eyləyir bizə sarı.*
*Ayırmayın məni doğma ellərimdən,*
*Çox incitmə, gəl yaramı asta sarı.*

2

Möhtac qalmaz tox olarsa göz, ələ,
Könül sevən o gözələ göz elə.
Əsli-kökü bilinməsə gözəlin,
Gəl inanma hər sürməli gözələ.

3

Səhvim olsa, unut, etmə büruzə,
Mən düşmüşəm gedər, gəlməz bir izə,
İkiüzlü nadanlardan qaçaram,
Mən mailəm səndə olan bir üzə.

4

İgid gördüm sinə üstə yay asan,
İgidlərin xoş sədasın yayasan,
Öz sevgini sevdiyinə deməyə,
Aşkar etmək ya çətindir, ya asan.

5

Gəl utanma, öz eşqini desənə,
Məndən gizli nə söyləsə, desə nə?
Sevgilimə məktubumu yetirsən
Bir hədiyyə alacağam de, sənə.

6

Dəlidağdan enib, qalxaq o dağa,
Nökər idi od püskürür od, ağa,
Yurda həsrət qalan dözə bilərmi?
Körpə uşaq naləsinə, o dağa.

7

Mənə canım deyən əhsən, yaşa, yar!
Gördüm sənin gözlərində yaş, a yar,
Çox olsa da bu millətin yazarı,
Nizamilər əsrlərlə yaşayar..

8

Meyvə boldur, yığın asta, hey dərin,
Ha baş vurdun bu göl elə hey dərin,
Xatırlayın qəlbinizdə hər zaman,
Unutmayın xidmətini Heydərin.

9

Keçəl Həmzə bilməz dilin Qıratın,
Çapıb qırda, hər tərəfi qır, atın,
Harda qalıb dəlilərin, Koroğlu?
Gəlin deyin, dərdi qəlbdən qır, atın!

10

Qədir oxuyaydı "A dili, dili",
Rəhimlidir, unutmayın Adili,
Hər deputat oxşayaydı kaş ona.
Yox çoxunun, mərd yanında a, dili.

11

Udu gözəl ifa etmiş o Məhsəti Gəncəvi,
Bir dövrdə yaşayıblar Şeyx Nizami Gəncəvi.
Rübailər, o "Xəmsə"lər yaradan sənətkarlar,
Xatırlanır hər zaman təxəllüsü Gəncəvi.

12

Bil ki, ömür keçir, yaş olsa əlli,
Qocalanın əsər vücudu, əli.
Kamil şəxsiyyətlər tanıyıram mən,
Dost olub Raufa Mir Haşım Əli.

13

Dərdin tapın, qollarımda şiş vəzin.
Öyrənirəm qafiyə, ölçü, vəzn.
Varmı tayı laçınlı Sultan bəyin?
Qədrin bilin, İdrisoğlu Əvəzin.

14

Əriyəcək, şorbaya duz sal atın,
Ləzzətlidir, nə dadlıdır salatın.
"Kitab evi" kömək edir çoxuna,
Əhsən olsun, yazıçıdır Salatın.

15

Əjdaha ilandır, o iki başlı,
Danışırsan yenə də ikibaşlı.
Dərdini de, utanma mərd dostuna,
Əlac edə sənə, saf, iki başlı.

16

Azadlıq aşiqi mərd Xəlil Rza,
Tükənməz mənbədir o Rəsul Rza.
Rübai karvanı eli dolanır,
Çəkməsin ağrı-dərd dost Oqtay Rza.

17

Məndən uzaq əriyərsən, əri, di,
Comərd gördüm qorxmaz, igid-ər idi,
Vətən dedim qürbətdən xəbər gəldi,
Bir ah çəkdim, dağ, dərələr əridi.

18

Dünyagörmüş kişi halal qız arar,
Özün satan namussuz o qıza, ar!
Mayasına naxələflik qatanın,
Üzü bil ki, hər cahanda qızarar.

19

İstəyirsən top-top oyna, top, ala!
O dünyaya xoş əməllər topala,
Qaçhaqaçda gəl etibar eləmə,
Nə çolağa, nə də ki o topala.

20

Cana dərman, yediyin o bal, adı,
Analara şirin olan baladı,
Öz elindən qaçqın-köçkün düşənə,
Yaşamaq da çox çətindi, bəladı.

21

Nəm torpağa çürük taxta döşəmə,
Yaxşı olar körpə cağa döş əmə,
Elə bilmə düşünmürəm heç səni,
Boş sözlərlə qabırğama döşəmə!

22

Səbr elə ki, çatasan sən hasilə,
Baxma nankor, göz yaşını ha silə,
Kara gəlməz, tutsan saman çöpündən,
Dözməz kimsə qasırğaya, ha selə.

23

Öyüd təsir etməz o kar qulağa,
Sırğa zinət verər qızda, qulağa,
Məmləkətdə hamı xoşbəxt dolana,
Aramızda fərq olmaya qul, ağa.

24

Gəl dil vermə boşboğaz o dilə sən,
Adam gördüm yalan sözdən dil əsən,
Eşit məni, sevinərsən bir gün sən.
Gəl qarğıma, dosta xoş gün dilə sən!

25

Fürsət düşsə, əzab vermə girova,
Kəklik, turac uçsa, gizli gir ova,
Rüşvət ilə iş düzələ demə ki,
Çapıb-tala, girəvədi, girəvə.

26

Əhsən olsun tez mənzilə çatana,
Gir yuxuma muradına çat, ana,
İşin düşsə çox müşkülə, çətinə,
Şükür edək dadımıza çatana.

27

Söz desən də ya nadana, ya daşa,
Əhsən olsun səndəki o yaddaşa,
Haram yolla qazanılan kimsənin,
Tamah salma bişirilən yad aşa.

28

Kimsə bilməz sevdiyim o yar adı,
Qarabağsız canım necə yaradı,
Təpərsiz dost öz dostunu qınadı,
Dost dostuna görən necə yaradı.

29

Dərdlərimə gecə-gündüz oyana,
Səndən ayrı dözə bilməm oy, ana,
Yurd-yuvama, doğma elə dönmədən,
Niyə məni qoyub getdin, oyan, a...

30

Qara qaşlı gözəl idi Gülüzə,
Qaşqabaqlı dayanma gəl, gül üzə,
Almayanaq, qaymaqdodaq, buxağa,
Tay tapılmaz, qönçə çiçək, gül üzə.

31

Ağılsız qız gödək geyər ,dar alar?
Bir gün yusan donun  necə daralar,
Günahsıza quyu qazan namərdin,
Vaxt gələcək dünya ona dar olar.

32

Gəl hürkütmə otlayan o qoyunu,
Göz ol, təmiz yusun qızlar qoy, yunu,
Təndir qala, qoyma köz hədər gedə,
Xəmir ötər, yığ bir yerə qoy, unu.

33

Görsənir bax, tüstü çıxan bacalar,
Sultanlar da rəiyyətdən bac alar,
Gəlin, deyim qardaşlara çox yanan,
Xoşbəxt olun görüm sizi bacılar!

34

O ceyranın qadasını alasan,
Ağlım kəsmir çətin  onu alasan,
Gəl dəyişmə öz ləhcəni, dilini,
Qədeş olma, gəla demə, ala, sən.

35

Yurda həsrət qalan gözü yaşarar,
Yalan sözdən çəkirsənmi Yaşar, ar?
Kimsə baxsa ötən ömür yoluma,
Alnımdakı qırışlardan yaş arar.

36

Qarşısını alaq güclü alovun,
Sərrast vurdun, sənindir gəl, al ovun,
Gözəl ceyran tumarlasa belini,
Xoşun gəlsə, al qoynuna, al, ovun,

37

Hər sirr vermə yoldan ötən kiməsə,
Böhtan sözdən kim qızara, kim əsə,
Öz  işini elə tut ki axırda,
Borclu sayma özgəsini, kimisə.

38

Düyü  var ki, ad qoyublar tamaşa,
Sovet sədri qadın idi Tamaşa,
Çox duz atma, bişsə yağda tam aşa,
Teatrda göstərirlər tamaşa.

39

Öz atımı ötən ata çatana,
Çırpı yığıb topaladım, çat, ana,
Bilikdə biz mərc eyləyək, yarışaq,
Gəl Sabirə oxşa görüm, çat, ona.

40

Qədir  gəlib oxuyaydı şikəstə,
İgid qanı axar şəhid o kəsdə,
Rəhmli ol, pul gözünü örtməsin,
Basdalama, kömək eylə şikəstə.

41

Qıyıq gözsən, gözlərin qıyma-qıyma,
Oxu atma, o ceyrana gəl qıyma,
Qonaq gələr birdən kimsə evinə,
Əti doğra yenə də qıyma-qıyma.

42

Balta vurma yaşıllıqda bitənə,
Çirkli yerə birə düşsə, bitə nə?
Şoran yeri şumlasan da nə fayda?
Seçmə toxum əksən, görən  bitə nə?

43

Yoxuşa qalx, uzansa da ha dərə,
Meyvə boldur, qızlar bağdan ha dərə,
Gəl mənalı dövran sürək həyatda,
Bax, gec olar, ömür gedər hədərə.

44

Bağla sinən üstə açıq düyməni,
Qıyma gülə, qırma qönçə düyməni,
Qəfil öpsəm sənin bal dodağından,
Gəl duy məni, duymasan hə, döyməni.

45

Arvadından narazı o incik ər,
İnci sözdən görən kimsə inciyər?
Gəl bu ömrü məna ilə başa vur,
Kişi kimi yaşa, olma ağciyər!

46

Toxunmayıb sənə yəqin yad əli,
Qovub bizi yurddan nankor yad eli,
Almasaq biz yağıdan yurdu geri,
Qoy desinlər bizə fərsiz, ya dəli.

47

Düz sözümdən  qanmaz çətin ki qana,
Yırtıcıtək düşmən susayıb qana,
Göyərçinlər dövrə vura havada,
Yuva sala, hər yerə uçub qona.

48

Şükür eləyin, dərin deyil yaram, az,
Sürt ehmalca tez sağaldar yara, maz,
Ha yaxşılıq eyləsən də qanmaza,
Qanan deyil, gönü qalın yaramaz.

49

Unutmayın nə mizrabı, nə simi,
Yaxınlaşır gözlə əsən nəsimi,
Diri-diri soyub dara çəkilən,
Yaşayacaq qəlbimizdə Nəsimi.

50

Ağıllıya yemək verdin, bə dəli?
Yaxın getmə, içib qızıb badəli,
Nisyə alma, o satıcı göygözün,
Gözü doymur, var çox ağır bəd əli.

51

Hörmət eylə, müqəddəsdir atalar,
Zibil olan yerə zibil atalar,
Uzaq mənzil qət eyləyən kişilər,
Yabı deyil, yorğa gedən at alar.

52

Dolaşdırma düyün düşər ilgilər,
Naşükürə ağır olan il gələr,
Əriş-arğac saplarını hörəndə,
Naxışlarda gözəl olar ilmələr.

53

At əsanı, yaraşmayır əsa, sən,
Sevən gözlə danışanda əsəsən,
Böyük-kiçik yeri bilməyən kəsin,
Əllisini şil-küt edib əzəsən.

54

Satqınları dillərindən asasan,
Çətin deyil yuxarıdan as, asan,
Ziyan çəkməz baxan böyük sözünə,
Atan deyən sözə qulaq asasan.

55

Tapdığına şükür eləsən, aza sən,
Gedər-gəlməz yolla  gedib azasan,
Diqqət ilə bax ləpirə izə sən,
Azmaq üçün ləpirsiz gəl, az, asan.

56

Bilet məndə gecikirsən qatara,
Qulaq asaq gəl təsnifə, qatara,
Sən özünə eyləyirsən pisliyi,
Xeyri yoxdur, tülkü kimi qat, ara.

57

Məni görmək istəyəndə bəzən gəl,
Hər gün gəlmə, gecə vaxtı, bəzən gəl,
Kölgə görsən, öz kölgəndi, qorxma ha...
Demirsən ki, bir dəfə də bəs, sən gəl!

58

Öz canımı alsan da, qıyma-qıyma,
Əti doğra xingələ qıyma-qıyma,
Ana-bala gəzən zərif ceyrana,
Gəl ox atma, yazıqdır, qıyma, qıyma!

59

Piston alsan, dənə-dənə qırma al,
Qızıl gülü gəl dibindən qırma, al,
Ara qatan salıb yenə qalmaqal,
Verdiyini al, bu işlər qurma, al.

60

Necə olar paltar arıq, ya kökə,
Çuğunduru sıx, qarışdır sən, kökə,
Həsrət qaldım çırpı yanan təndirə,
Bişirərdi anam, ləzzətli kökə.

61

O xəstənin tapılarmı əlacı?
Uşaqlıqdan oxuyasan əlaçı,
Hər aşpazı çağırmayın məclisə,
Adam var ki, nə xeyri var əl, acı.

62

Gözəl sözlər deyib bizə atalar,
Günahı yox, o körpəni atalar,
Döyüş vaxtı dostun qəfil qaçarsa,
İgid dostun vəfalısı at alar.

63

Vətənini kişi kimi qoru sən,
Köz keçdisə, gəl dağıtma qoru, sən,
Yazqabağı beçə-balın kəsərik,
Arıları qurddan-quşdan qorusan.

64

Eniş olsun, yoxuş olsun, ya dərə,
Bel bağlama bədəsilli yad ərə,
Yetişsə də üzümün salxım-salxım,
Gəl özün dər, qoyma kimsə yad dərə.

65

Nə deyəsən bicdən olan bicə sən.
Cıdır düzdə yağıları biçəsən,
O kəhrəba sarı salxım, yetişib,
Sünbülləri vaxtında tez biçəsən,
(Mən kəsmərəm səni, körpə beçəsən).

66

Canı qoru, yaxın qoyma azarı,
Varmı onun ya həyası, az arı?
Ölər əgər çalsa onu yüz arı,
Onu çalan bir, ya iki, az arı.
(Yalançısan, inanmazlar ha zarı!)

67

Bardaq kəlin buraxsan, vuracaq qıza-qıza,
Söz deyəndə qızarar, həyalı o mərd qıza.
Dəmiri döyəcləsən, dediyin tək alınmaz,
Gərək dəmir sobada yumşala, möhkəm qıza.

68

Pəncən ilə gəl sakitcə, gəl incə,
Ətirli çay hazırdı, sən gəlincə,
Öpsəm əgər buxağından, üzündən,
Gəl incimə sevgilindən, gül, incə!

70

Yəhya əmi, hamı deyir Yaya sən,
Quzuları çıxart qışdan yaya sən,
(Ot-ələfdən qaldı bina, taya-sən)
Kükündəki[1] xoş simalı üzlərin,
Qonaqpərvər xasiyyətin yayasan.

71

Dost qəlbini incitməyib duyasan,
Atı tutdun, tək qalıbdı day, asan,
Külək kəsib, qızmar günəş boylanıb,
Təbiətdən ilham alıb duyasan.

**1.Kükü-Şahbuz rayonunda böyük kənddir**

72

Kefli söysə, fikir vermə, desə nə?
O gözəldən nə xəbər var, desənə,
Mənə könül bağışlayan gözəlin,
Alacağam nə istəsən de, sənə?

73

Özün gülsən oxşayırsan gülə, sən,
Deyib hər an şadlanasan, güləsən,
Gül görmüşəm zəif külək titrədən,
Ləçəkləri tez tökülən gül, əsən.

74

Heç görmüsən yalan sözdən düz əsən,
Hər gözələ nəğmə qoşub düzəsən,
Gəl lağ etmə gül-çiçəkli kəndimə,
Bax həsrətlə, dağ-dərəyə, düzə, sən.

75

Gəl deyişək, təcnis yazaq, sən də yaz,
Axan çayı yoxla, dərin ya dayaz,
Hər fəsildə aləm gözəl görünər,
Qonaq gəlin qışda, yayda, ya da yaz!

76

Yod, ya duz bas ağrıyan o dişinə,
Aslan üçün erkək nədir, dişi nə?
Söz deyəndə qımışırsan üzümə,
Çox şinəmə, şinəyirsən di şinə!

77

Gəl güvənmə nə nadana, alçağa,
Qalx hündürə, lağ eləmə alçağa,
Körpə gördüm kimsəsizlər evində,
Öz balandır, qucağına al çağa.

78

Əhsən olsun atı möhkəm çapana,
Yersiz sözdən gəl alışma çapana.
Qalaq-qalaq yazdıqlarım saralıb,
Kömək eylə, bir kitabın çapına.

79

Səsi yoxsa, o adam heç oxumasın,
İstəyirəm mən Qədirin oxumasın.
Niyə yordum o ceyranı yatan yerdə,
Şəklim üstə kamanımla oxum, asın!

80

Yersiz sözlər demərəm ki, oxşatsınlar gülüncə,
Görməmişəm, gör nə qədər çiçəyincə-gülüncə.
O gözəlin gecə-gündüz pərvanəsi olaram,
Bircə kəlmə hə-söyləsin gülmərəm, o, gülüncə.

81

Zəli iynəsini sancıb üzümə,
Həsrət qaldım o kişmişi üzümə.
Yalan, böhtan, iftiraya inanma,
Hər tənəli sözdən gəl məni üzmə.

82

Əyləci bas, vermə gücü sən qaza,
Ova çıxsan, at ördəyə, ya qaza.
Ehtiyatı gəl əlindən vermə sən,
Boğularsan, ayıq yat, ha bax, qaza!

83

Öyüd versən, qanan deyil, o, kürdü,
Qınamayın, dürüst, qorxmaz o kürdü,
Əgər hər kəs öz günahın anlasa,
Deməz  təqsir sakit axan o Kürdü.

84

Əl qaldırma, görmürsən ki boyludur,
Çatmaz ona boyum, necə boyludur.
Hər şairə öz diyarı gözəldir,
Şairlərin yurdu Qazax, Poyludur.

85

İki şəhər bir adlanır Astara,
Uşaq yatır, qışqırma, asta ara.
Çox şişməkdən pencəyin də sökülüb,
Möhtac qaldın köhnə cındır, astara.

86

Səy də, gic də, yersiz gülən özünsən,
Hamımızdan ucaboylu uzun, sən.
Gəl etibar etmə yoldan ötənə,
Öz işini özün danış, özün, sən!

87

Həkim! Bu qız sağlamdırsa, sağ alım,
Deyinmə ki, dərd çəkməyim, sağalım.
Göy çəməndə otlayan o inəyin,
İçim südün, yenə sağsan, sağ, alım.

88

Gəl əyilmə nə bəylərə, nə xana,
O xınadan deyil, gördüyün xına.
Meyxanadır, çayxanadır, nə bilim,
Nə xanədir, mən bilmirəm, o xanə?

89

Siqaret də ziyan verər, çox çəkmə,
Kömür yoxsa, şişə kababı çəkmə.
Çox gəzmisən ayaqların şişibdir,
Çust al geyin, olmaz sənə o çəkmə.

90

Bir busə ver tez ayılıb sağalım,
Pul gələcək qaşınanda sağ əlim.
Deyirsən ki, bəxtimə dilli çıxıb,
Evlənəndə de, şikəst yox, sağ alım.

91

Çox qaşıma, yara olar, az qaşın,
Məftun edir məni, sənin göz, qaşın.
Gəl bir dəfə hə de, qadan canıma,
Barmağında gəzdir yaqut, ləl qaşın.

92

Yediyin ət maş, kişmişli aşnandı,
O cür mallar pas atıb tez aşınandı.
Neçə ildir, bilirik, gəl gizlətmə,
Qulluq edən sənə hansı aşnandı?

93

Adam gördüm durub necə cərəli,
Qubadlida bir kənd  vardi Çərəli.
Bir söz atsan yerindən tez tullanıb,
Oraq kimi kəsər ha, bi çər Əli.

94

Sən çatanda hava çoxdan qaralar,
Yalan deyən kəsin üzü qaralar.
Gecə gəlsən dağa çıxma, kəsə gəl,
Cığırla gəl, dağ-dərəni qar alar.

95

Rauf, bil ki ömür keçdi yarıdan,
Fərsiz oğul olmur heç də yarıdan.
Səhvin duyan geri dönər yarıdan,
Ayılaydım bu yuxudan yarı dan.

96

Tısbağatək düşmən çəkilib qına,
Susayıbdı onlar gör necə qına?
Azad edək Qarabağı gəl bu gün,
Nə özünü nə də ki məni qına.

97

Məsləhətləş, heç olmasa, sən, bizlə,
İnanmırsan gizli, tək gəlib izlə.
Gönü qalın o adama ha desən,
Xeyri yoxdur döy, ya da ki ha bizlə.

98

Yaralasaq ilan bizi çalardı,
Toyda kimlər oxuyardı çalardı.
Yeməsəydin üzlü südün qaymağın,
Nənəm dadlı, üzlü qatıq çalardı.

99

Anam süzən çayım mənə şirindi,
Fərhad deyil dağı çapan Şirindi.
Ana görsə muma dönər şir indi,
Ana dilim görün necə şirindi.

100

Qərib oldum öz elimdə anasız,
Bu həyatın nə dəyəri anasız.
İstəmərəm olsun kimsə anasız,
Anaları sağlığında anasız.

101

Qışda tez-tez bişir xingəl, əriştə,
Dedin tez gəl, yeyək, təkəm, ər işdə,
Dolaşdırma arğac sapın, saymışam,
Yəqin düyün düşüb, axtar ərişdə.

102

Toy eləyib desən, gələrik biz də,
Xonçaların hazır qalıbdı bizdə.
Söz qanmayan o adama çox demə,
Təsir etməz ona düz söz, ha bizdə!

103

Qoru Allah! Heydər oğlu İlhamı,
Şairlərin gecə gələr ilhamı,
Ağdamda toy-busat ola bu gündən,
Sevinə, şad ola, həmin il, hamı.

104

Kimi müftə yedi, kimi qazandı,
Aşı tamlı edən, o mis qazandı,
Mərdimazar bu kəslərdən uzaq ol,
Belələri ayaq altı qazandı.

105

Mənsum necə muğam üstə köhləndi,
Çapdığın at yorğa gedən köhləndi.
Arıq-uruq yığılsa da bir yerə,
Kök adamla yarış görüm, köhlən, di!

106

Namaz qılan gördüm, əməli pak, düz,
Dediyi hər sözü edir o, sözsüz.
Adam var möhürdən ayrılan kimi,
Yenə şeytani yol seçir o duzsuz.

107

Tapdalasan şahmar ilan çalardı,
O vaxt kimlər oxuyardı, çalardı.
Gecə südün qaymağını yesəm də,
Nənəm yenə üzlü qatıq çalardı.

108

Yoxlasan bilərsən nə var o başda,
Əyləşib yenə də o qanmaz, başda.
Səhərdən lal durub baxırsan mənə,
Şeir deyirsənsə, denən, di başda!

109

Çalış hər an sənə yanan dosta yara,
Kələk gəlmə sevdiyin o doğma yara.
Doğulduğum yurda, elə həsrət qaldım,
Qarabağsız ürəyimiz düyün, yara.

110

Çox dadlıydı səhər südlü o yarma,
Yaş odunu kor baltayla gəl yarma!
Bu dərmanlar xeyir vermədi cana,
Boş söhbətdi, özünü çox da yorma!

111

Dağ basdılar ona ucu şiş mili,
Gəz Şirvanı, ya Muğamı, ya Mili.
Toxuduğum ipi çox dolaşdırma,
İtirmişəm, tapsam, tez qaytar mili.

112

Keçi piyi kömək edər, tez ovun!
Gözdən itdi kəklik, qırqovul ovun.
Məndən ayrı gəzmə, ceyran balası,
Sevinərsən, gəl sən, mənimlə ovun.

113

Böyük bəstəkardı Qarayev Qara,
Dost dosta yaxmasın heç zaman qara.
Gözünə çöksə də nə duman, nə çən,
Qara demə yağan ağappaq qara.

114

Vokal sənətinin banisi Bülbül,
Cəh-cəh vurar bağda o sarı bülbül.
Sən də get yetimlə qismətini böl,
Bölərdi qismətin kasıbla Bülbül.

115

Dost dadına dost yetişə, dost qala,
Pənah xanın qalasıdır, o Qala.
İki sevən xoşbəxt ola, şad ola,
Rəvadırmı oğlan ölə, qız qala?

116

Abşeronda qoyun sortuydu Qala,
Yaxşı insan qəlbdə hər zaman qala.
Ad qoyanda qoyma Nata, ya Qala,
Baxıb yanma dalınca qala-qala.

117

Nabələd düz yolda yolunu azar,
İnsanın üzündə olsun bir az ar.
Soyuqdan özünü qışda gözləsən,
Səndən uzaq olar dərd, bəla, azar.

118

Biz çatsaq da onlar hələ daldadı,
Tapmaz bizi heç kəs, bura daldadı.
Qara, ya Çil beçə yesən yaxşıdı,
Dadı dəri, boyun, ya da daldadı.

119

Ürəyimə bu nisgili o, yaxdı,
Analardı, gecə-gündüz oyaxdı.
Sil gözünü, qəlbim para-paradı,
Göz yaşların leysan olub oy! Axdı.

120

Qurunun oduna o yaş da yandı,
Rüşvət cibin arxa, de ya da yandı?
Ulaq zığa batsa bir dəfə batar,
Döyəcləsən demə niyə dayandı.

121

Yaraşıqsan, canım, sən bizim elə,
Gələndə de, ya da bircə him elə.
Söz deyəndə yalan demə, düz danış,
Nə qeybət qır, nə belə de, nə elə.

122

Çox uzağa getməz itən danalar,
Pis əməli qınayarlar, danallar.
Get kəndinə, uzun ömür sürərsən,
Ağlı olan qoyun, ya dana alar.

123

Tapdaladın, indi ilan nə çala,
Bu düzlərdə olmaz çuxur, nə çala.
İti kərəntiylə ot çala-çala,
Qulaq asaq, Rəmiş bir "segah" çala.

124

Göy çəmənə yağdıqca qar, a yağa,
Bəy gələndə, gəlin qalxa ayağa.
Nökər oğlu indi özün bəy sanır,
Onu görən təzim edir: ay ağa!

125

Muğam oxunanda, gəl, səsin alma!
Fayda verər yesən gündə bir alma.
Gördüyüm, sevdiyim o gözəl qızı,
Bəyəndim, ay ana, onu al maa...

126

Acı xəbər bizi yaman çox üzdü,
Dostum burdan o tayadək çox üzdü.
Südün qaymağını almasan əgər,
Qatıq olar dadlı, həm də çox üzdü.

127

Çeşmədən gələn su sızqayla axır,
Haqqa gələ dinsiz, imansız, axır.
Maymaq, tənbəl olsa əgər naxırçı,
Pinti olacaqdır hər zaman axur.

128

İlyas Qəmgin körpü tikdi-dərədə,
Bəndlər durur görən Dəvədərədə[2].
O tayda biz qora yığıb yeyərdik,
Deyərdilər, gilə-gilə dər ədə.

*2.Dəvədərə Qubadlı rayonunda Muradxanlı və Xəndək kəndləri arasında dərədir. Sahilindən Həkəri çayı axır*

129

Paxıl, acıdildir qonşum Pirəli,
Qəlbi təmiz, pakdır fağır pir Əli.
Qurban dedi azad ola Qarabağ,
Nəzir verər yenə o Pirə, Əli.

130

Yolun üstə qanqal bitsə, o an, qır!
Yersiz yerə bağırırsan, di anqır!
Dam axıtsa qır əridib tez qırla,
Sən tapmasan, mən taparam o an, qır.

131

Görmək üçün gəz Misiri, Yəməni,
Seçirsən seç, bir dost kimi ya, məni.
Şuşa hələ düşmən tapdağındadır,
Axtarıram qaçqın dostum Yəməni.

132

Meyil etmə həll bişməyən aşa sən,
O aş yeyən ad qazanıb Aş əsən.
Yağı kəsib dağlarımı, zirvəmi,
Qartal olub qayaları aşasan.

133

Nəfin görər satan, ya xırda alan,
Alver edib öz işində qurdalan.
Tanımazsan, gözəlləşib Xırdalan,
Nə uduzar, nə büdrəyər kürd alan.

134

Yeznəsini çox istəyər bu baldız,
Süfrəmizdə bol olsun fətir, bal, duz,
Suallara cavab yazdım dübbədüz,
Yenə çatmır texnikuma bir bal, düz.

135

Canım-gözüm, qanımdır, doğma anam Sərəncam,
Heç zaman unutmaram dərdimə oldun əncam.
Qarabağ azad ola, düşmənləri məhv edək,
Qələbə müjdəsilə gözləyirik "Sərəncam".

136

Köhlən ata nalbənd vursa nal, əmi,
Çəkdin sitəm eşidirsən naləmi.
Dolansan da Rauf kimi aləmi,
Möhtac qaldın cıdırda de, nalamı?

137

Məhəbbətlə sevən tapa, ya aza,
Məhəbbəti qəlbdə tapa, ya yaza.
Gəl kişi ol, aldatma məsum qızı,
Məhəbbətsiz sevən çıxmaz ha yaza.

138

Ellimizdir, demə ona yad elli,
Ağdamımı zəbt eyləyib yadelli.
Qara olar üzü, qeybət qıranın,
Onlar olur fəndkir, ya bic, ya dilli.

139

Gözəlləşib Qazax, Tovuz, Quba, Qusar,
Xain düşmən məkrlidir, səni busar.
Zəli kimi millətinin qanın soran,
Haram yolla pul qazanan bir vaxt qusar.

140

Yaxın getmə, bir də gördün dəvə qızar,
Karvan ürkər, səhralarda sarvan azar.
Veyil-veyil çox avara gəzmə daha,
Abrın olsun, heç olmasa bir az qızar!

141

Fidan yenə öküz təki bir də qızdı,
Xatırladım, elə bil ki, həmin qızdı.
Bir saatdır hələ çayın qaynamayıb?
Süz, yandıq ki, kifayətdi, bir az qızdı.

142

Naz eləmə, səsin varsa di oxu!
Boş-boşuna atma hədəfə oxu.
Dərs başlayıb, iki kitabın çatmır.
Atan alsın bir Rəsmixət, bir Oxu!

143

Əsir əlin-qolun, o çatma qaşın,
Birə düşüb elə bil ki, az qaşın!
Sıldırımlı qayaları adlayıb,
Seçək nişangahı, zirvənin qaşın.

144

Sevinib toplaşıb camaat gur, şad,
Xar olsun aranı qatan namərd, yad.
Əsilli dostları unutma, oğul!
Atanla dost olub, qardaşdı Gurşad.

145

Şair axtarıram yazıma baxsın,
Yazıma, qışıma, yazıma baxsın.
Şair axtarıram eynəyin taxsın,
Məni sözləriylə yandırıb yaxsın.

146

Çatlayıbdı axçilərin davanı,
Erməni-rus qurtararmı davanı?
Göyçə mənim öz doğmaca gölümdür,
Atır ortalığa Yanlar da Vanı.

147

Əsəbimiz çəkilib tıxaclarda tarıma,
Şikayətə baxan var, əbəs yerə zarıma.
Köhnə o sarı simlə çox da ki, zilə qalxma.
Qiymət verib dövlətim mənim qədim tarıma.

148

Dözməyəcək nə döşəmə, nə tavan,
Kimlər ilə olacaq görən davan?
Biz Şuşanı geri ala bilməsək,
Birdəfəlik küsər Vaqif, Natəvan.

149

Bol yetişib bostanda qarpız, qovun,
O körpənin belin astaca ovun.
Hər sözümə don geydirən kimsəni
O namərdi aramızdan tez qovun!

150

Ermənilər şər-şəbədə yazandı,
Gələn bəlkə xamdı, ya da azandı.
Ay imansız, yeyib-içib yatırsan,
And içmişdin, yenə içdin, yaz, andı!

151

Gözüm qalıb o yollarda bərədə,
Haqsızlığa dözməz dağ da, dərə də.
İlyas körpü tikdi, yarımçıq qaldı,
Bəndlər durur görən Dəvədərədə?

152

Saat birdir, görmürsən ki, azandı?
Gələn yəqin xamdı, ya da azandı.
Tövbə edən and içmişdi-içmərəm.
Dinə gələ, qalıbsa da, az andı.

153

Dəb düşübdü hər küçədə bir dönər,
Çiy bişsə də, kim danışar, kim dinər?
Yeyib yatma, idman elə hər səhər
İnsan qocalanda yumağa dönər.

154

Ünvanını de, mən gəlim haraya?
Səbr eyləyin, Allah çatar haraya.
Sevdiyini aşkar edə bilmədin
Heyfslənmə, ermənidir ha, Raya.

155

Kürd gözəli ağ daban,
Dağda gəzir ağ Qaban.
Şairlər oylağıdır,
Kəlbəcərdə Ağdaban.

156

Qorxma, dəyməz Div, ana!
Həsrət qaldım divana.
Ağdabanlı Qurbanın
Bax yazdığı divana.

157

Yandım atəşə, nara,
Çox yaraşır gül nara,
Kasıblara hey yanan,
Mərd insandı Gülnarə.

158

Mən olum haqqa qurban,
Kəsək Allaha qurban.
Əsilli şair idi,
O Ağdabanlı Qurban.

159

Şükr elə bu il yaza,
Mən borcluyam İlyasa.
Nə ola, gələ bir də,
Qəmli bayatı yaza.

160

İdmançıydı Knyazın oğlu Qara,
Ağartıya deməyin heç vaxt qara,
Dubay necə isti olurmuş, Allah,
Onlar yəqin həsrət qalıblar qara.

161

Oynama gəl o dəhşətli od ilə,
Bal-şəkər qat məlahətli o dilə.
Qurban olum, lay-lay deyən o dilə,
Allahımdan səbr, xoş günlər dilə.

162

Dərdlərimə gecə-gündüz oyanan,
Fikrimdən alışıb köztək o yanan.
Niyə məni qoyub getdin, oyan, a...
Səndən ayrı dözə bilməm, oy! Ana!

163

Lay-lay deyən ana dilin şirindi,
Fərhad deyil, dağı çapan Şirindi,
Anam süzən çayım mənə şirindi.
Ana görsə, muma dönər şir, indi!

164

Bir bəladı dediyim o Bəybala,
Gəl dinc otur, dinlə məni, ay bala.
Babası da seçilən bəy olubdur,
Yola getmir mənimlə bu bəy, bəla.

165

Yandın elin dərdinə,
Bağdan nəyi dərdin, nə?
Mərd qardaşım Namiqin
Cavan ikən dərdi nə?

166

Qorxmaz comərd heç vaxt ürkü,
Qışda geyin o yun kürkü.
Unutmayın türk dünyası,
O xilaskar Atatürkü.

167

Qəlbdən nifrət silinə,
Yol açıla könülə,
O ecazkar gur səsi,
Allah verib Könülə.

168

Hər sözünü Rauf gəlib incələr,
Səs salmasan onda atan dincələr.
Üzük necə gör yaraşır Laləyə,
Xəlq eyləyib Allahım incə əllər.

169

Hər gün yesə, gümrah edər bal onu,
Geri saldı, çatmadı bir bal onu.
Aparmısan Saraydan süd, qatığı,
Məəttələm, qaytar qardaş, balonu.

170

Dost olub atamla Gözəlov Qoca,
Qürurlu xeyirxah dağlardan uca,
Mikayıltək igid böyüdən ata,
Ona hörmət edər həm cavan, qoca.

171

İgid, qəhrəmandır, mərd Allahverdi,
Eldar da, Əmir də öz sözün dedi.
Yeddi bacılara qardaş göndərən
Gözəl müjdə payın tək Allah verdi.

172

Kəndin beçə toyuğunun bu dadı,
Bağban bağda ağacları budadı.
Xəstə bilməz ağzındakı o dadı,
Yediyin bud hansı quşun bud adı?

173

Sağ-sol çiynimizdə yazır Məleykə,
Kömək olsun bizə Mədinə, Məkkə.
Allaha şükr edən xeyirin görər,
İki bacım hər ikisi Məleykə.

***

Dərsimi almışam İlyas Qəmgindən,
Heç zaman bezmərəm nadan dəngindən.

***İlyas Qəmginin***
***(Allahverdiyevin)***
***"Qəm dəryası" bayatılar kitabından***
***Bakı "Elm " 1999***

Günün qaşıdı Məkkə,
İnanc yaşıdı Məkkə,
Mənim inam dünyamın,
Təməl daşıdı Məkkə.

***

Qışda eşinən dağlar,
Yayda üşünən dağlar.
Dərdimi kimə deyim?
Ayıl, düşünən dağlar!

Həkəri axar gedər,
Şimşəktək çaxar gedər.
Baxma İlyasdı axan?
Ellərim baxar gedər.

***

Nikita saynan keçdi,
Qorbaçov taynan  keçdi.
Addım-addım ilişib,
İşləri vaynan keçdi.

***

Qəmginən şumlar kimi,
Ovulan qumlar kimi.
Yanıram eşq oduna,
O yanan şamlar kimi.

Mən elin vətəndaşı,
Qəlbimdi vətən daşı.
Öləndə sinən üstə
Döşəyin vətən daşı.

***

Əzizim, uca dağlar,
Zirvəsi uca dağlar.
Sözlə, sənmi qojasan,
Qojadan[3] qoja dağlar.

***

Allahverdi Ağdama,
Arxa idi Ağdama,
Siz Allah, bəd xəbəri
Yetirməyin Ağdama.

***3. Qarabağın el ağsaqqalı Qoca Gözəlova işarədir***

Qəmgin əyim-əyimdir,
Gəl demə ki, nəyimdir.
O salxımlı söyüdlər,
Qəmdən əyim-əyimdir.

***

Haqsan binadan, Allah,
Məni yaradan Allah,
Hər cür şəri, yamanı,
Götür aradan Allah.

***

Qəmginəm yaz, ağı yaz,
Bağlardakı tağı yaz,
Ağı qara eyləmə,
Qaranı yaz, ağı yaz.


RÜBAİLƏR

# Düşmüşəm dərdə

Məhəbbət aşiqi eşqlə yaşayar,
Ağarmış saçıma baxmaz yaşa, yar.
Nəmli gözlərində qəmli yaş, a yar,
Demədim sevgidən, saxladım pərdə,
Sənin ucbatından düşmüşəm dərdə.

Lalətək bitərdin dağda, dərədə,
Ahınla yanardı, dağ da, dərə də.
Deyirdin yetişib narım, dər, ədə,
Demədim sevgidən, saxladım pərdə,
Sənin ucbatından düşmüşəm dərdə.

Günəşlə dövr edər göydəki ay da,
Savab qazanarsan ver nəzir ayda.
Gənclik illərimi salma a, yada,
Demədim sevgidən saxladım pərdə,
Sənin ucbatından düşmüşəm dərdə.

Məhəbbətlə baxdım qəmzəli yara,
Özgəyə vuruldum, qəlbimə yara.
Xoşbəxt ol, deyirəm, bəxtindən yara,
Rauf da sevgidən saxladı pərdə,
Sənin ucbatından düşübdü dərdə.

Mərd deyirsən sözü namərd üzünə,
Mail oldum şirin dilli sözünə,
Nəğmələşən şeirlərim dolaşır,
Qarabağa, Şirvan, Muğan düzünə.

***

Kəl oğlandır, çox güclüdür o, kəltək,
İşimizə pəl vuracaq o pəltək.
Nə qaynayıb, nə qarışır dostlara,
Söz deyəndə böyüyür necə mal tək.

***

Səs salan o gözəlliyin  olubmu,
Nur camalın, al yanağın solubmu?
Gözəlliyi Xudam veribdir sənə,
Təravətin görən  yenə qalıbmı?

***

İkiyə bölünmüş o torpağımı,
Qəmli sətirlərlə necə sağaldım?
Vətən qəmi qubar etdi qəlbimi,
Ürəyimdə dağlandıqca dağ aldım.

***

Gəlir gəlsin, neynək o da,
Sirri vermə qonşu yada.
Yanma nahaq, özgə oda,
Bax, gedərsən birdən bada.

***

Seyr edəndə səhər dağın ətəyin,
Gəl dağıtma görsən arı pətəyin.
Öz elinə, yurda nankor çıxanlar,
Görəcəklər zərbəsini kötəyin.

***

Boranda, çovğunda dost yetər dada,
Görəsən düşərəm nə vaxsa yada.
Sən atlı olmusan, mən də piyada,
Ummaram, demərəm nahaq söz yada.

***

O, ceyranın qadasını gəl alın,
Möhürə çox dəysə sağalar alın,
Ağdam hələ yağı tapdağındadır,
Gəlin hücum edək, yurdumu alın.

***

Görüm meyvələrin hər yaz nübarın,
Almasın, heyvasın, gilasın, narın,
Ləbləri bal dadan, gözəl ceyranın,
Alsın qadasını Rauf Nubarın.

# Nanəcib

Məni görən zaman ədəb göstərib,
Sən hardan olmusan belə saf, nəcib?
Özgə qapısında hər gün yallanıb,
Özgənin qeybətin qırma, nanəcib!

Meyl etmə imkanlı xəbis nəslərə,
Qulağın öyrənib o şər səslərə.
Nə deyim aranı qatan kəslərə?
Özgənin işini vurma, nanəcib?

Bəlkə doğulmusan yaltaq, ya da bic,
Özünü göstərmə sadə, avan, gic.
Ayılsan, anlasan, olar onda gec,
Raufu arxadan vurma, nanəcib!

# Pis gözdən, günahdan qoru, ay Allah

***(Xeyriyyəçi, psixoloq, iş adamı, hüquqşünas, "Mehriban ana" medalına layiq görülmüş Gülnarə Əhmədovanın fikri əsasında yazılıb)***

Bizi böhtanlardan, şərdən yalandan,
Bizi yerli-yersiz gözdən salandan,
Xaindən, paxıldan, altdan alandan,
Pis gözdən, günahdan qoru, ay Allah!

Bizə gecə-gündüz quyu qazandan,
Haqlı sözlərimdən yersiz qızandan,
Düz yoldan sivişib yolun azandan,
Pis gözdən, günahdan qoru, ay Allah!

Birgə çörək yeyib dostu satandan,
Sonra kosatəki ara qatandan,
Qurunu pisləyib yaşa çatandan,
Pis gözdən, günahdan qoru, ay Allah!

Nadan kütbeyin, səy, qansız qanmazdan,
Nə xeyrə, nə şərə bil ki, yanmazdan,
Yetimi qapıdan qovan anmazdan,
Pis gözdən, günahdan qoru, ay Allah!

Kasıb dosta darda, qəlbən yananı,
Xatırla hər zaman ata-ananı,
Könlünü alanı, gözəl cananı,
Pis gözdən, günahdan qoru, ay Allah!

Raufun işini dibdən burandan,
Dərk etməz desəm də, ona Qurandan,
Polisə iş verib, pusqu qurandan,
Pis gözdən, günahdan qoru, ay Allah!

***

Yolumu bağlayıb cadu eyləyən,
Allah qənim olar sənə bir zaman.
Quranı oxuyub sən dərk eyləsən,
Şeytana uymazsan, onda o zaman.

***

# UNUDULMAZ XATİRƏLƏR



*Atam İlyas Qəmgin və anam Sərancam*



*Qardaşım Namiq 1964-2011*



*“Respublika” qəzetinin baş redaktoru Teymur Əhmədovla bir yerdə*



*Tələbə dostlarım 30 ildən sonra*



*"Xudafərin" şadlıq sarayında şeir söyləyərkən*



***Tələbə dostlar Ələddinin oğlu Nahidlə Sərbinazın toy məclisində***



Sabir Məmmədovun 50 illik yubileyində



Gülxas Səmədlinin yaradıcılıq gecəsində



***16 saylı cəzaçəkmə müəssisəsində***



***C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Teymur oğlu Bağırovun anım mərasimində***



*"Narkomaniyaya qarşı mübarizə" mövzusunda Nərimanov rayon A.Vəliyev adına 258 saylı tam orta məktəbdə keçirilmiş tədbirdə*



*"Misir Ərəb" Respbikasının səfirliyinin mədəniyyət mərkəzində R.İlyasoğlunun "Xatirəyə dönmüş anlar və Qara göl" romanının (müəllif İlyas Qəmgin) təqdimat mərasimi 2009-cu il*



*Misir Mədəniyyət mərkəzində 2011-ci il*



*Nərimanov rayon 36 saylı məktəbin direktoru İradə Hüseynova ilə söhbət edərkən*



Laçın rayon İcra Hakimiyyəti başçısının müavini ilə söhbət edərkən



Milli Məclisin deputatı Adil Əliyev seçiciləri ilə görüşərkən



**_Kosmetoloji klinikanın baş həkimi Zərifə xanım Quliyeva_**



***Respublika Əlilərin Bərpa Mərkəzinin direktoru Səadət xanım Mahmudova "Respublika" qəzetinin məsul katibinin müavini: Rauf ilyasoğlu ilə söhbət edərkən 03.07.2008***



*Səbail rayon TSEK-nin sədri Fikrət Qasımovdan müsahibə alarkən*



*Rauf İlyasoğlu şeir söyləyərkən*



*Milli qəhrəmanların ailə üzvləri ilə görüşdən*



*"Xəmsə" restoranında xeyriyyə tədbiri*




*Şuşa-Cıdır düzü, 1978-ci il*



*Misir Mədəniyyət Mərkəzində*



*Xeyriyyəçi, psixoloq-hüquqşünas Gülnarə Əhmədovaya Dədə Qorqud fondunun və "Azərbaycan dünyası" jurnalının redaksiya heyətinin birgə təsis etdiyi "Mehriban ana" medalı təqdim edilərkən*



*Suraxanı rayonu 7 saylı İnternat evində xeyriyyə tədbiri*



Dayım Adil və Atam İlyas



Ağdamın tanınmış ziyalıları



Böyük şəxsiyyət Kamran Hüseynov



C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Təvəkkül müəllimlə söhbət edərkən



**Oğlum Vüqar**



*Şəkildə Rauf İlyasoğlu, Məhəmməd Əlioğlu, Azərbaycanının milli qəhramanı Faxrəddin Cəbrayılov, Akademik Vəli Əliyev Azərbaycan Dövlət Statistika komitəsinin məsul işçisi Elbrus Quliyev*

***Qaradağ rayon Məhkəməsinin sədri Araz Nurəddin oğlu Kazımov***





***Yusif Əhmədov Zeynab Xanlarova ilə Ağdam 1955-ci il***



***Abşeron rayonunun Saray qəsəbə 1 saylı tam orta məktəbinin ibtidai sinif müəllimi Məlahət xanım Əmirova "Əsrin ziyalısı" fəxri diplomu ilə təltif olunarkən***



***H.Zərdabinin 132-ci il dönümü-"Mətbuat günü" ilə bağlı "Qafqaz Media" İB-nin "Fəxri Fərmanı"na layiq görülərkən***

# İlyas Qəmginin davamçısı

Rauf İlyasoğlu! Bu ad, bu imza çoxlarına, Respublikamızın oxucularına, sənət və elm adamlarına, ziyalılara tanışdır. Onun təbliğata heç də ehtiyacı yoxdur. Lakin o, özü təbliğ

edəndir. "Respublika" qəzetində və digər qəzet və jurnallarda müxtəlif səpgili yazıları dərc olunur və sevilə-sevilə oxunmaqdadır.

R.İlyasoğlu həm qiraətçidir, həm şair-publisistdir, həm saz və tar ifaçısıdır, ozandır, həm də külli halda ensiklopedik lüğətdir. Uzun illərdir ki, "Əsrin Ziyalıları" XİB ilə əməkdaşlıq edir. Qarabağın yetişdirdiyi belə bir vətənpərvər oğula eşq olsun deyirik. O, səmimi və saf bir insandır. Keçirdiyimiz xeyriyyə tədbirlərində bir aparıcı kimi hər kəsi dinləyir, söz verir və tədbirlərimizin yüksək səviyyədə keçməsində böyük əmək sərf

edir. Yüksək aparıcılıq qabiliyyətinə malik həzin səsi ilə teleaparıcılardan geri qalmır desək, heç də yanılmarıq. Qəzetimizdə Rauf müəllimin "Yollarda yazılan təcnislər" şeirləri və digər publisistik yazıları mütamadi olaraq dərc olunur və oxucular tərəfindən böyük maraqla qarşılanır.

"Cinaslı rübailər" adlı bu kitab inanırıq ki, oxucularımızın ürəyinə yol tapacaqdır.

*"Əsrin ziyalıları" XİB-nin sədri,*
*eyni adlı qəzet və jurnalın təsisçisi-*
*baş redaktoru:*
***MƏLEYKƏ GÖYÇƏLİ***

# MÜNDƏRİCAT

Cinasda məharət .......................... 3

Dördlüklər, Cinaslı rübailər ............11

İlyas Qəmginin "Qəm dəryası"

bayatılar kitabından .......................69

Rübailər .........................................73

Düşmüşəm dərdə ............................74

Nanəcib ..........................................79

Pis gözdən, günahdan qoru,

ay Allah ..........................................80

Unudulmaz xatirələr .......................83

İlyas Qəmginin davamçısı .............100

*Məsləhətçi: Gülnarə Əhmədova*
*Korrektor: Məleykə Göyçəli,*
*Lalə Allahverdiyeva*
*Dizayner: Orxan Rzazadə*

*Yığılmağa verilmişdir: 22.12.2012*
*Çapa imzalanmışdır: 03.01.2013*
*Kağız formatı:*
*Həcmi ş.ç.v:13 Sifariş 500 sayı 300*

*Kitab "Əsrin Ziyalıları" XİB-nin qəzetinin kompüter mərkəzinədə nəşrə hazırlanmışdır.*
*Tel.: (012) 539-74-35, (055) 799-88-95*
*Ünvan: Bakı şəh.,*
*E-mail:orxanrzazade@mail.ru*

*"Təhsil" EİM*
*NPM - da hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*